

■ Əhməd Qəşəmoğlu







*"Cavanşir" poemasından parça.*

## 20 YANVAR

...1990-cı il, 19 yanvar, axşamçağı,
Biləcər yolunun üstü,
camaat ocaq qalayıb, üzlərində bir qürur,
qalxır tüstü...
Cavanşirlə Humay da qarışıbdı onlara, müzakirə edirlər...
- qoşun yeritməzlər Bakıya... qorxudurlar,
dedi bir cavan,
- vallah, hər şey gözləyirəm bunlardan,
dedi başqa birisi...
- bir azdan silah paylayacaq Xalq Cəbhəsi, dedi bir qız,
gəlsələr biz də qabaqlarına çıxarıq,
qumbara, yanar butulka atarıq...

ürəyi ağrıdı Cavanşirin, dedi:
- bacım! əvvələ o silah hardadı?
vədə verən aldadır!
həm də o silah olsa belə, tanklara neynəyəcək?
indi dağılmaq lazım,
məkrli bir oyun var, məncə qoşun gələcək...

bu zaman, gözlərindən od yağan,
üz-gözü nur içində Allahyar
od götürdü tonqaldan,
qədim türk əsgəri tək, atdı onu ağzına, səsləndi:
- kim gedir getsin! tək də qalsam, qalacağam!
gəlsin qoşun! güllələrin hədəfində,
tırtılların altında qalacağam!
əlimizdən nə gəlir, bu vətənin yolunda,
heç nəyə imkan yoxdu.
deməsinlər qaçdılar,
mən şəhid olacağam, buna gümanım çoxdu!

Allahyarın bu sözünə, dindi cəsur insanlar -
gənclər, qocalar
dedilər getmərik biz!
ağır günündə vətən, təəssübsüz qalar.

Cavanşir qürurla baxdı insanlara,
onları yetirən xalq basılmaz!
şəhid olsalar belə, ruhlarından nur axar vətənə,
arzular yerdə qalmaz!
sonra gördü ki, Humay üşüyür,
həmdə bilirdi ki, çox acdı
dedi: - gedək Humay, paltar götürək,
bir az yemək ye... gecdi.
sonra baş çəkərik Qurd qapısında ,
mənim iş yoldaşlarıma,
onlara da çox dedim,
amma qulaq asmadılar mənim israrlarıma...

Humay gilə çatanda, qızlar süfrə açanda,
qəfil söndü televizor...
ekran sanki, bir tüstüyə büründü...
dəqiqələr keçdi, düzəlmədi
həyəcan aldı Cavanşiri, şübhələndi,
heç xoşuna gəlmədi...
bir azca yeyib, tez:
- mən çıxım dedi, görüm nələr baş verir?
qızlar: - biz də səninlə çıxaq dedilər.
Cavanşir: - yox, yox!
xəbər gətirərəm, eşikdə aləm qarışıq,
darıxmayın siz də çox...
atıldı eşiyə, bir xəbər öyrənməkçün,
yol aldı AXC-yə.
bir az getmişdi, Humay, arxadan ona çatdı,
qorxdu Cavanşir:
- nədən baxmadın sözümə? qorxuludur.
dedim axı gəlirəm...
- təhlükələr içində tək qalsan,
mən dözmərəm, ölərəm!
sonra zarafat etdi:
- həm də bir yerdə olsaq, mələklər qoruyar bizi,
gülüb davam elədi:
- axı özün demişdin, mələklər görüşdürüb bizi...

AXC-nin, Mərkəzi Komitəyə yaxın
Oktyabr rayonu bölməsində
beş-üç nəfər adam vardı,
üzləri həyacanlı, gözləri intizardı...
nə baş verir şəhərdə, soruşdu Cavanşir...
- televizyanı partladıbdılar, dedi,
ağladı bir xanım...
karıxdı Cavanşir, sifəti oldu ağappaq, qar.
Humay itirdi özünü, qorxdu, soruşdu:
- partlayıbsa, burda nə var?
Cavanşir inlədi: - deməli başlayıblar...
sən tez evə get dedi,
- səni tək qoyammaram, bir yerdə olacağıq!
qərarı qəti idi....

taksi saxladı Cavanşir:
- gedək xəbərdar edək, təcili dağılsınlar...
qəhrəmandır hər biri,
böyük mübarizələrçün, sağ-salamat qalsınlar...

çatanda onlar növbəti tonqalın başına,
ucadan xəbər etdi Cavanşir,
dedilər: - bilirik!
əziyyət çəkmə boş-boşuna,
dağılan deyilik!
hara getdilər, bu qərarı eşitdilər...
insanlar ölümün üstünə gedirdi.
bezmişdilər
iki illik əzab dolu oyunlardan,
qəzəb qəlbi didirdi...

...axşam saat on birdə, birdən, gizlindən,
Bakının kəndlərindən çıxdı tanklar...
tarix belə dövrana
ağlayıb qara bağlar...
gurladıqca tankların səsi...
iblis qol-qanad açırdı,
mələklərin kəsilirdi səsi....
tanklar, bu qəvi tanklar irəlilədikcə
qanrıldı sanki, gecənin qolu sındı...
tanklar cumdular Azərbaycanın üstünə.
sanki torpaq yol vermək istəmirdi, qışqırırdı:
- dayanın cəlladlar!
nəşəli-nəşəli əzib keçdilər....
ağaclar kəsmişdi yolu qışqırırdılar:
- dayanın cəlladlar! əzib keçdilər.
toyları çalınmamış,
hələ bir-birindən ömür şirinlikli
"həri"-ləri alınmamış
oğlanların, qızların arzuları
karıxmış bulud kimi, bağırdılar:
- dayanın cəlladlar! əzib keçdilər...
körpə uşaqların ömür sevinci çıxdı,
bir əllərində gəlincikləri, bir əlində daraqları,
oyuncaq avtomatları,
qışqırtıydı onların
ən iti yaraqları,
əzib keçdilər...

şəhidlər ağlar kimi?
qan axdı çaylar kimi.
baş itirdi bu yer, göy
dəli haraylar kimi...

bu da Bakı....
hər tərəfdən, qaranlıqdan qatar-qatar,
gözləri alov dolu, quduz tək cumdu tanklar
tonqal ətrafında oturmuşdu
qocalalar, cavanlar, uşaqlar.
qadınlar qışqırdı: - aman tanklar! kişilər təmkinlə:
- görmürlər əliyalınıq? bizə neynəyər onlar?
gələrlər başa salarıq, deyərik sizi aldadırlar!
deyərik, şəhər sakitlikdir,
bura qoşun soxmaq nakişilikdir!

tanklar, ölüm dolu o tanklar
tonqal başına çatar-çatmaz
əli avtomatlı, saqqallı neçə nataraz,
gülləni dolutək yağdırdı camaatın üstünə -
hara gəldi qaçan kim,
öz canından keçən kim!
yaralanalar, qan içində
tırtılların altından çıxarırdı
daha ağır yaralıları...
asimana qalxırdı qışqırtıları.
yazıqlar qan-tər içində xilas etdikcə ətrafdakıları,
qan aparırdı özlərini, yıxılırdılar...
sual dolu gözləri...

neçə igid bir anda
göllənən qana düşdü,
yüz-yüz meyit, yaralı düşdü,
yan-yana düşdü...

qulaqları qanatdı qadın fəryadları,
qudurğan əsgərlər:
- "turki", "turki!" bağırıb boşaltdılar neçə dəfə
avtomatları...
tanklar, tankdakılar
fərəh, sevinc içində
elə bil hardansa
onlara baxan rəhbərin önündən
paraddan keçirdilər...
qabaqlarına nə keçsə, əzirdilər, biçirdilər.

neçə yük maşını əzildi, yerlə yeksan oldu
neçə dirək yan-yana düşdü,
üstü tamam qan oldu...
tankdakılar xumar gözlərlə,
ən müdhiş üzlərlə, vəhşi baxışlarla
göz vurdular bir-birlərinə,
yerlə-yeksan elədilər, nə keçsə əllərinə...

yeridi tanklar düşüb qalmış meyitlər üstündən,
yaralı, can verən şəhidlər üstündən,
əzib torpağa, daşa suvadılar...
tankdakılar, qəh-qəhlə:
- "ubey turka!" deyib, iblis tək uladılar.
sonra çıxıb tankdan
bir andaca yığdılar meyitləri,
aparıb gizlində yox elədilər...

bir vaxt Hitleri, faşistləri söyənlər
elə oyun çıxardı ki!
görsəydi faşistlər, dəhşətdən
hədəqədən çıxardı gözləri...
sonra,
ovdan sonra nəşələnən ovçular tək, soldatlar
artırmaq istəyərək quduz sevinclərini,
atəşə tutdular
Bakının dəhşətə gəlmiş evlərini...
bir anda evlərdə, eyvanlarda,
küçədə, dalanlarda neçə meyit
tanrıya dikdi gözlərini...
yenə ov iti kimi cumdu soldatlar
meyit toplamağa -
gizlinlərə atmağa...

Cavanşirlə Humay o anda küçələrdə insanları
tanklardan uzaq olmağa səsləyirdi,
qalxmışdı harayları.

şəhərin üst tərəfindən
nəriltiylə tanklar gəlirdi...
onların tırıltısı, səsiylə,
nalələr yüksəlirdi...

Bakı qan içindəydi, Bakı güllələnirdi...
şəhərdə təlatüm,
fələk diksinib, göydə çaşıb Ay
küçədən-küçəyə qaçır Cavanşir, yanında Humay.

"Olimp" mağazasının arxasına çatanda, qəfil
tankdan atəş açıldı, qarşıda üç nəfəri yıxıldı,
tutub əlindən yerə çəkdi Cavanşiri Humay,
başlarının üstündən dalbadal keçdi güllələr.
hər yanda qışqırıq, bağırtı, inilti, nalələr...
bir az susdular, dəhşətlə, səksəkəylə gözlədilər...
keçib getdi tanklar, nalələr bürüdü hər yanı
çabalayan insanların axırdı, fışqırırdı qanı...
hönkürürdü Humay, hönkürürdü Cavanşir,
yaralılara kömək edirdilər, dindirirdilər bir-bir.

bir azdan gəldi "təcili yardım" maşınları
qoşulub camaata Cavanşirlə Humay
maşına yığdılar yaralıları...
üst-başları, əlləri, üz-gözləri, beyinləri
qan içində hövlank, dəli kimi qaçdılar
o küçəyə, bu küçəyə, günəş çıxana qədər.
göydən yağış kimi yağırdı dərd, kədər...

əzilmiş avtomobillər, gülləboran divarlar,
daşlara səpələnmiş nə qədər nahaq qanlar.
Bakı həmin vədə böyük xarabazar oldu
küçələr, binalar sovet soldatıyla doldu...
qan ilə dolmuşdu hər birinin gözləri
gülləyə tuturdular eyvanları, evləri...
qorxutmaqçün tankla hərdən əzirdilər
insanla dolu olan avtomobilləri.

yanvarın iyirmisində, gecə saat ikidə işğal oldu Bakı.
raport verdi Kremlə qoşunbaşı:
- Bakı bizimdir!
oğlumuzun, qızımızın, nəvəmizindir!

dərhal sərt komendant saatı qurdular,
hamını zorla evlərinə qovdular...
zırıldadı Moskva televizorları:
- Bakıda bir dəstə
narkoman, avara insanlar
rusları, ermeniləri qırmaq istərkən
qarşısını aldı rəşadətli sovet əsgəri...

...şəhidlər!!! nurlu insanlar...
körpə uşaqlar, cavanlar, ahıllar
onları tanıdıqca hər kəs hönkürər, ağlar...
gözlərindən ilahi aləmlər boylanan
nurlu, gənc şair,
qucağı gəlincikli körpə qız uşağı...
ağbirçək ana,
ömrü vətən eşqiylə şölə verən gənclər...
gül kimi qalxan bir ailənin əlvan,
çiçəkli budağı İlham,
onun adını dünyaya yayan,
dözməyib canına qıyan Fərizə...
Cavanşir şəhidlərin adları içində
Allahyarın adını görcək,
bir jurnalist dostundan, Allahyarın
tanklar ölüm saçanda
möhtəşəm ölüm rəqsi içində
yaralıları necə xilas etdiyini,
ölümün üzərinə qururla getdiyini dinləyib,
tonqal başında necə şölə verdiyini xatırlayıb,
onun hüzrünə getdi....
Allah! nələr eşitdi!

demə, həmin gün evdən çıxmazdan əvvəl,
əməllicə yuyunub, qüsllənib, tərtəmiz,
təzə paltarlarını geyinib, deyib:
- qədim el adətincə, bir evdə yeddi oğul varsa, biri
yurda yağı gələndə şəhidlik, qurbanlıqdır.
eşidənlər ağlayıb, deyiblər:
- getmə! gör necə yaraşıqlı,
Boylu-buxunlu cavansan!
zarafat eləyib:
- qurban yaraşıqlı qoçdan olar!
sağollaşıb hər kəslə
dövrana gücü çatmayan Allahyarın,
gücü özünə, sözünə çatıb...
üz-gözü nurdan xınalı qurbanıq qoç kimi
ölümün üstə gedib...
şəhidlərin içində
özünü qurban deyən allahyarlar çox idi...
qurbanlıq olaraq da
mübarizə aparır, vuruşur, bu vətənin igidi!...

...Şəhidlər xiyabanı oldu Dağüstü park,
o vaxt belə işlədi fələyin əlində çarx...

